Ədəbiyyat qəzeti

6 noyabr / 2021

# Sənə payız gətirmişəm

Allı-güllü uşaqlar, dünyaya yaraşıqlar üçün yazılıb Firəngiz Babayevanın "Mənim balaca dünyam" adlı hekayələr kitabı. Hər şeydən əvvəl dünyaya heyrət və maraqlarının gözü ilə baxan gül balalar haqqındadır.

İsti yay günündə şıdırğı yağış altında bir yaşıl yarpağı çətir əvəzi həvəslə gəzdirən Selin ("Selinin payızı") ona görə sevinclidir ki, nənəsi payız ayını çox sevir. Buna görə də isti yay axşamı ürəyində arzu tutmuşdu ki, payıza çox qalmasına baxmayaraq havalar dəyişsin, göy üzü buludlansın, selləmə yağış yağsın. Arzusu çin olur. Ertəsi gün pəncərəni döyəcləyən yağış səsinə oyanmışdı. Dərhal da payız sevdalısı nənəsinə zəng etmişdi ki, "nənə, nənə, çıx eyvana... Mən sənin üçün payız gətirmişəm.




Balaca Sevincsə xəstə anasının qayğısına qalmağın xoşbəxtidir. Xəstə ana ciddi-cəhdlə etiraz etsə də Sevinc onu yuxuya verib evin bütün işlərini yerinə yetirir. Üstəlik, pürrəngi çay da dəmləyir. Ana bu çaydan içə-içə gözlərinə işıq gəldiyini deyir: "Çox sağ ol, mənim balaca köməkçim, sən ananı sağaltdın".

Balaca qızcığaz üçün bu sevincli xəbəri eşitmək necə də xoşdur...

"Uşaqlar və Güllügül" hekayəsində də körpə balalar eyni xeyirxahlığın sevincliləridir. Meşəyə ekskursiyaya gedən uşaqlar balaca, köməksiz bir dələyə rast gəlirlər. Quru ağac budağı altında qalın əzilən dələni xilas edib məktəbin həyətinə gətirir, qulluq edirlər. Və ona ad qoymaq istəyirlər. Hər kəs öz fikrini bildirir. Amma bir araya gələ bilmirlər. Bu zaman sevimli müəllimləri onların köməyinə gəlir. Təklif edir ki, hərə öz istədiyi adı bir kağız parçasına yazıb qutuya atsın: "Hansı ad çıxsa dələyə o adı verək". Belə də edirlər. Seçilən kağızdan "Güllügül" adı çıxır. Balaca dələ bu adla böyüyür, uşaqlar ona öz varlıqlarının bir parçası kimi baxır və ondan ayrıla bilmirlər...

Belə, hamsını indi desək, sonraya nağıl qalmaz ki!..

"Şirvannəşr"də nəfis tərtibatla çap edilən "Mənim balaca dünyam"ın redaktoru şair, Əməkdar incəsənət xadimi Yusif Həsənbəy, naşiri görkəmli uşaq şairi Qəşəm İsabəylidir.

*Sərvaz HÜSEYNOĞLU*